# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951, № 12, maddə 1653; 2015, № 5, maddə 615; 2016, № 10, maddə 1727; 2017, № 4, maddə 621, № 9, maddə 1759, № 11, maddə 2149; 2018, № 4, maddə 824, № 5, maddə 1131; 2019, № 4, maddə 770, № 5, maddə 966) ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nın 10 nömrəli əlavəsi yeni redaksiyada verilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 11 noyabr 2021-ci il

№ 343

"Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"na **10 nömrəli əlavə**

# Fiziki şəxslər tərəfindən gömrük orqanına təqdim edilən sadələşdirilmiş bəyannamə

*Bəyannamə yetkinlik yaşına çatmış şəxs tərəfindən doldurulur.*
*Müvafiq cavab uyğun damada "X" ilə işarə olunur.*

| **1.** | **Şəxsə dair məlumatlar** | |
|---|---|---|
| 1.1. | Adı | |
| 1.2. | Soyadı | |
| 1.3. | Atasının adı | |
| 1.4. | Şəxsiyyəti təsdiq edən sənədin nömrəsi | |
| 1.5. | Vətəndaşlığı | |
| 1.6. | Gəldiyi və ya getdiyi ölkə | |
| 1.7. | Məlumatlar yetkinlik yaşına çatan şəxsə aiddir | bəli ☐ xeyr ☐ |
| | Yetkinlik yaşına çatmayan şəxsə dair malları bəyan edən şəxsin şəxsiyyətini təsdiq edən sənədinin nömrəsi | |

**Giriş** ☐ **Çıxış** ☐

| **Keçirilmə xüsusiyyəti** | | |
|---|---|---|
| | **Avtonəqliyyat** ☐ | **Hava** ☐ |
| | **Dəmir yolu** ☐ | **Poçt** ☐ |
| | **Dəniz** ☐ | **Piyada** ☐ |

| **2.** | **Bəyan olunan mallar** | | |
|---|---|---|---|
| 2.1. | Müəyyən edilmiş hədlərdən artıq keçirilən mallar * | bəli ☐ | xeyr ☐ |
| 2.2. | Müşayiət olunmayan baqajda və ya daşıyıcı şirkət vasitəsilə keçirilən mallar | bəli ☐ | xeyr ☐ |
| 2.3. | Müəyyən edilmiş hədlərdən artıq müvəqqəti keçirilən mallar * | bəli ☐ | xeyr ☐ |
| 2.4. | Müəyyən edilmiş hədlərdən artıq qiymətli metallar və qiymətli daşlar * | bəli ☐ | xeyr ☐ |
| 2.5. | 10 000 (on min) ABŞ dolları ekvivalentindən artıq xarici valyuta və qiymətli kağızlar | bəli ☐ | xeyr ☐ |
| 2.6. | 20 000 (iyirmi min) manat və ondan yuxarı məbləğdə olan nağd milli valyuta (kağız və metal pul nişanları) və milli valyutada ifadə olunmuş qiymətli kağızlar | bəli ☐ | xeyr ☐ |
| 2.7. | Nominal məbləğindən asılı olmayaraq milli valyutada ifadə olunmuş yubiley və xatirə pul nişanları | bəli ☐ | xeyr ☐ |
| 2.8. | Dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar, dini məzmunlu başqa məlumat materialları | bəli ☐ | xeyr ☐ |
| 2.9. | Xidməti və mülki silah, həmçinin onun döyüş sursatları | bəli ☐ | xeyr ☐ |
| 2.10. | Kökünün kəsilmə təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri | bəli ☐ | xeyr ☐ |
| 2.11. | Gömrük sərhədindən keçirilməsinə görə lisenziya, icazə sənədi tələb olunan digər mallar | bəli ☐ | xeyr ☐ |
| 2.12. | Ölkə ərazisinə gətirilən mobil telefon və digər simsiz rabitə avadanlıqları | bəli ☐ | xeyr ☐ |
| 2.13. | Avtonəqliyyat vasitələri | bəli ☐ tranzit ☐ | xeyr ☐ |

| **Sıra №-si** | **Bənd üzrə** | **Mallar (valyutanın növü) barədə məlumat** | **Ölçü vahidi** | **Ümumi miqdarı** | **Qanunvericiliklə tələb olunan hallarda lisenziya, icazə sənədinə dair məlumatlar** | **Müvəqqəti qalma müddəti** ** | **Malın gömrük dəyəri** *** |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | **Ümumi gömrük dəyəri** | |

**3. Bəyannamədə qeyd olunan məlumatların düzgünlüyünə və tamlığına görə cavabdehlik daşıyıram.**

"______"________________ 20____ il                Bəyan edən şəxsin imzası __________________

| **Gömrük əməkdaşının xidməti qeydi** | M.Y. |
|---|---|
| | |
| | |
| | (imza) |

* 2.1-ci, 2.3-cü və 2.4-cü bəndlərdə qeyd olunan hədlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın 2.1-ci bəndi ilə müəyyən olunur.
** Mallar gömrük ərazisinə müvəqqəti gətirildikdə və ya gömrük ərazisindən müvəqqəti aparıldıqda, onların müvəqqəti qalma müddəti göstərilir.
*** Gömrük dəyəri dedikdə, malların Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 302-ci maddəsinə uyğun olaraq bəyan edilən dəyəri nəzərdə tutulur.